Ədəbiyyat qəzeti

Elçinin "Qəbiristanlıqda məhəbbət əhvalatı" hekayəsi ("Ədəbiyyat qəzeti", 26 noyabr 2016) mənə məhəbbət əhvalatından daha artıq, tənhalığı anlatdı, onun haqqında düşünməyə, o an hiss etdiklərimi paylaşmağa sövq etdi...

# TƏNHA QUŞ YUVA BAĞLAMAZ...

Esse



Mətanət VAHİD

Texnologiyanın imkanları istədiyimiz hər yerə və hər kəsə tez və rahat çatmağa şərait yaratdıqca modern insanın içindəki tənhalıq duyğusu da artdıqca artır. Uşaqdan böyüyə az qala hər kəs ətraf tərəfindən anlaşılmadığından, çevrəsində onlarla insan olduğu halda, özünü yalnız, tənha hiss etdiyindən şikayətçidir. Onun şikayət etdikləri içərisində ondan şikayət edənlər də var və beləcə, qapalı çevrə üzrə davam edir bu tənhalıq. Tənhalıq hətta xoşbəxtliyin və gülüşlərin içindən belə, boylanıb göz vura bilən çoxbilmişdir; bütün normal insanların zaman-zaman hiss etdiyi, üz-üzə qaldığı ağrı, bəzən seçim, bəzən də məcburiyyətdir. Hətta daim özü və ətrafı ilə mücadilə aparıb pozitivə köklənməyə, özünü xoşbəxtliyinə inandırmağa çalışan insan belə, arabir bu çabasından bezir, usanır və anidən hər şeyin mənasızlığına vararaq böyük bir boşluq içərisinə düşür, özünü tamamən tənha hiss edir...

Oxuduğumuz mətn bizi həmin məqam üçün ilgisi olan hər hansı bir mətləbə daha da yaxınlaşdırır və qeyri-ixtiyari barəsində fikir yürütməyə yönləndirir. Elçinin "Qəbiristanlıqda məhəbbət əhvalatı" hekayəsi ("Ədəbiyyat qəzeti", 26 noyabr 2016) mənə məhəbbət əhvalatından daha artıq, tənhalığı anlatdı, onun haqqında düşünməyə, o an hiss etdiklərimi paylaşmağa sövq etdi...

Hekayə "... sonra dəniz tərəfdən yüngülcə bir yaz mehi əsdi və o yaz mehi güllərin, çiçəklərin ətrini bütün ətrafa yaydı, elə bil, bura qəbiristanlıq yox, dağ yamacındakı o gözəl çəmənlik kimi bir yer idi - o gözəl çəmənlik ki, Şölünün uşaqlığı da, yeniyetməliyi, gəncliyi də kəndlərinin böyründəki o çəmənlikdə keçmişdi. "cümləsi ilə başlayır və ilk anda düşündürən "nədən sonra?" sualı olur. Çünki elə bu cümlədəcə Şölünün (Şölə) uşaqlıqdan ta qəbiristanlığa qədərki keçmişi üzərinə ani bir işıq zolağı düşür.

Bu hekayədə Şölünün də, Ziba xalanın da keçmişi sonradan əvvəlinə kimi yerli-yataqlı danışılır. Hətta xadimə işlədikləri "Qarğa qondu qəbiristanlığı"nın belə, tarixçəsi açıqlanır, nə vaxt, hansı şərtlərdə yarandığından söz edilir. Təkcə qəbiristanlığın müdiri Qiyas müəllimin keçmişi müəmmadır - heç olmayıbmış kimi. Sanki həyatının əvvəlini itirmiş, boşluğa düşmüş insandır. Bircə onun "...dan sonra" deyilə biləcək bir keçmişi yoxdur.

Bəs indisi necə - Qiyas müəllimin indisi, ürək dolusu "yaşayıram" - deyə biləcəyi bir həyatı varmı?! Qəbiristanlıqdakı işi onun kimsəsizliyini ört-basdır edir: kimsəsiz qəbiristanlığa "yiyə duran" Qiyas müəllimə bütün qəbirlərin adını, hər birinin yerini, hansı sırada yerləşdiyini bildiyi bu məzarlıq ev kimi doğma və tanışdır. Onun tənhalığı ən çox bu dirilərə gərəksiz, ölülərə əbədi məskən olan məkana hər mənada bağlılığında ifadə olunur.

İşdən sonra gedəcəyi bir evi, ailəsi, yolunu gözləyəcək, qarşılayacaq, qayğısına qalacaq və onun da öz sevgisini, diqqət və qayğısını bəxş edə biləcəyi bir kimsəsi yoxdur. Niyəsini biz bilmirik, müəllif bilərəkdən burada növbəti "müəlliflik hüququ"nu oxucuya ötürür - hər bir oxucu özü üçün "uydurur" onun keçmişini, təkliyinin, tənhalığının səbəblərini.

Şölü də Qiyas müəllim kimi tək yaşayır, övladlarını, nəvəsini hərdənbir yoluxmaq imkanı olur. Bəs onu bu qəbiristanlığa bağlayan nədir? Niyə vaxtilə qopub gəldiyi, indi də tez-tez xatırladığı kəndinə-kəsəyinə üz tutmur? Şölü təkliyini tənhalıq kimi yaşamayanlardan, özünə hər yanda, hər kəsdə, hər şeydə hayan tapa bilənlərdəndir. O, bu qəbiristanlığın "ən qocaman sakini" Muxtar müəllimin başdaşısına baxıb göz də vurur, zarafat da edir, başını hər nə cürsə qata bilir. Qiyas müəllimsə quru, hissiz-duyğusuz adam təsiri bağışlayır, buna görə də kiməsə maraqlı deyil.



Biz çox vaxt daxili aləmimizin çevrəmizlə münasibətlərdən nə dərəcədə ibarət olduğunu dərk etmirik. Tənhalıq - insanın öz içindəki azadlığıdır, bütün ətraf aləmdən, fiziki və maddi olandan özünü qoparıb içinə gömülməkdir. Özünü anlaya, duya bilməyən insanın tənhalığı qorxuncdur, bədbəxtlikdir. Tənhalığını sevən insan onu başqalarının fiziki varlığıyla "məhv etməyə" çalışmır. Tənhalıq təklikdən daha çox, qələbəliyin verdiyi bir duyğudur - nə qədər çox insan varsa çevrəndə və sən o çevrədən qaçmaq iqtidarında deyilsənsə, son qaçış yeri kimi öz içinə çəkilirsən. Ətrafında, evində qələbəlik olsa belə, orada özünü tənha bilən insanlar, adətən, özlərini işə verir, iş günü bitsə də, evə getməyi mümkün qədər yubadır, daha çox özü ilə baş-başa qala biləcəyi zamanı uzatdıqca uzatmağa çalışırlar. İnsanın iç dünyasının boşluğundan və əksinə, "doluluğundan", bütünlüyündən meydana gələn tənhalıq fərqlidir.

Çarli Çaplinin 70 illiyində səsləndirdiyi "Özümü sevməyə başlayanda anladım ki, kədər və iztirab sadəcə mənim öz iradəmin əksinə yaşadığım barədə siqnaldır..." fikrini xatırlasaq, düzü-dünyanı bürümüş kütləvi tənhalıq sindromuna baxıb düşünmək olar ki, insanın özünü qavraması ilə ətrafın qavraması arasındakı təzadlardır tənhalıq duyğusunu yaradan. Reallıqla barışa bilməməyin, subyektin fərdi gerçəkləri ilə harmoniya təşkil edə bilməməsinin nəticəsi olaraq meydana çıxan tənhalıq ətrafla hesablaşmamaq, altşüurun "belə olmalıdır" diqtəsini yerinə bilməmək acısından yaranır bir az da. L.Vitgenşteynin məşhur "Mənim dilimin sərhədləri - mənim dünyamın sərhədləridir" ifadəsini azca təhrif etsək, dünyamızı düşüncələrimizlə sərhədlədiyimizi deyə bilərik. İnsanın öz içinə çəkilməsi, əslində, hakimi-mütləq ola bildiyi yeganə məkandakı "hegemonluğunu" təmin edir. Ola bilər ki, qəbul etsək də, etməsək də, hamımız bu və ya digər dərəcədə eqoistlərik.

Biz insanları gördüklərimizə əsasən dəyərləndiririk, bəzən xarakterlərin arxasında nə gizləndiyini araşdırmadan pis xüsusiyyətlərinə görə adama nifrət edirik, üstünə yarlıklar asırıq: kimsə qaraqabaqdır, kimsə zəhmlidir, adamayovuşmazdır, əsəbidir, dəlidir... deyə uzaq durduğumuz insanların sayı getdikcə artır. Çünki həyatın formulu belədir: hüzurlu yaşamaq istəyirsənsə, hüzursuzluq verən hər kəsi və hər şeyi iqnor et. Bəzən sadəcə o insanlara kömək etməli olduğumuzun, bəlkə lap bircə saat olsun, dinləmək, kiçicik bir jestlə belə dəstək olub, həyatını dəyişə biləcəyimiz ehtimalını istisna edirik. Unuduruq ki, böyük əksəriyyətin xarakterinin formalaşmasında genetik amildən daha çox yaşantıların rolu olur. "İnsanlar valideynlərindən çox, cəmiyyətin övladlarıdır" - deyən Hz. Əlinin sözünə dönürük yenə. Bu cəmiyyət isə bizlərdən ibarətdir - ağrımayan başına yaylıq bağlamaq istəməyən, kimsənin dərdinə şərik ola bilməyən, "Öz"ündən başqa bir məqsədi olmayanlardan...

Hətta ən yaxınında olanı belə tanımaqda acizdir insan əksərən, çünki tanımağa, dərinə nüfuz etməyə çalışmır, gördüyünə əsasən fikir formalaşdırır. Övladını yaxından tanıyan çoxmu valideyn var ətrafımızda? Dostundan daha artıq, qardaşı ilə sirrini paylaşan, bacısının səmimiyyətinə güvənən necə? Etiraz edib "mənim ən yaxın dostum atamdır", "qardaşımdan yaxın sirdaşım yoxdur" deyən istisnaların səsini eşidirəm bu an. Mənsə istisnalardan bəhs etmirəm, ümumdan, bəlalardan danışıram. Bir ailənin içində bir süfrədən yeyib, bir-birinin geyimini geyib yad olan nə qədər insan var dünyamızda?!

İddia etmirəm ki, bütün qaraqabaq, soyuq, assosial adamlar mütləq yazıq, bədbəxt adamlardır, amma Ziba xalanın zəndeyi-zəhləsi getdiyi, "Pax!.. elə bil zamministrdi!" - deyə yekəxana danışığını, quruluğunu bəyənmədiyi Qiyas müəllim, doğrudan da, bədbəxt adamdır. "Boğazlığı həmişə ütülənməmiş olan" köynək geyməsi, həmişə eyni köhnə qalstuk taxması kimi, onun özü haqqında daim üçüncü şəxsdə danışması da, təklikdəndir sanki. O, bu təkliyində, həm də tənhadır, bədbəxtdir.

Təklik heç də hər zaman tənhalıq demək deyil, zira hüzurunu məhz təklikdə tapanlar da var həyatda. Tənhalıq da hər zaman təklik deyil, kütlənin içindəki tənhalıq daha şiddətlə hiss olunur və ağrı verir. Fiziki tənhalıq başqasının varlığı ilə "müalicə oluna bilən" bir mərəzdir. Qiyas müəllim içindəki tənhalıq səbəbinin təkliyi olduğunu qəbullanır və onu bir başqasının varlığıyla bəzəməyə can atır. Tənhalıq əzabı çəkən bu insan şüuraltı olaraq başqa birinə - onu anlayacaq, dəstəkləyəcək, sadəcə varlığı ilə yanında olacaq insana ehtiyac duyur və Qiyas müəllim üçün bu ehtiyacın adı məhəbbətdir. Hərçənd hekayədə nə Qiyas müəllimin, nə Şölənin dilindən sevgiyə dair bir kəlmə çıxır, nə sevdiklərini izah edən bir hərəkətlərinə şahid oluruq.

Bu qəribə məhəbbət əhvalatının sevgi etirafı da qəribədir; Qiyas müəllim ilk dəfə olaraq Şöləni həmişə olduğu kimi soyadı ilə "Süleymanova" - deyə çağırmır, hamı kimi, "Şölü" - deyə xitab

*Qəbiristanlıq əbədiyyət misalıdır. Heç yana getməyəcək, gedəcək yeri yox, əbədiyyən uyumuş ruhlar və bu sonsuzluq içrə özünə həmdəm arayan iki tənha insan... Çarəsizcə Şölünün sinəsinə qısılan Qiyas müəllim "sabah gedək zaqsa" deyir və bununla da məsələ tamamlanır. Çünki hər ikisinin şüuraltında tənhalığın diqtə etdiyi bir istək var və ikisi də biganə kimi davransa da, məqamı gələndə uzun-uzadı söhbətlər etmiş və razılığa gəlmiş kimi hazırlıqlı hiss edir özünü.*

edir. Şölənin qəbiristanlıqda doğulub buradaca qol-qanad verən sevgisi də həmçinin: "Və Qiyas müəllim siqaret dalınca siqaret çəkə-çəkə qəbirlərin arasında dolaşmadığı üçün, elə bil, "Qarğa qondu qəbiristanlığı"nda bir-birinə qarışmış o ölgün gül qoxusunu daha da ağırlaşdırmışdı." Qəbiristanlığın girişində hər gün işçiləri qarşılayan Qiyas müəllimi görməyəndə ürəyi narahatlıqla dolan Şölə xadimələr otağına keçəndə onun ara verməyən öskürəyini eşidib rahatlıq tapır. Özü kimsəsiz olan Qiyas müəllimin bu dəfə adətincə qəbirlər arasında gəzinməməsi qəbiristanlığı kimsəsizləşdirmişdi Şölə üçün. Bu, sevgiydimi, ya bağlılıq, öyrəncəlikdi?! Hər nədirsə, qarşılıqlı bir ehtiyacdır.

Qiyas müəllimin Şöləyə hiss etdiyi bir kişinin bir qadına sevgisindən daha çox, sadəcə bir insana, isti nəfəsə, hənirtiyə, qayğıya, loru desək, qulaqyoldaşına olan ehtiyacdır. Xüsusən, yaşlı insanlar sonun yaxınlaşdığına daha real yanaşdıqlarından (gəncin içində "hələ vaxt var" deyə aldadıcı bir ümid közərməkdədir daim) yanlarında birinin olmasına ehtiyac duyurlar. Uşaqlaşan, körpə kimi kövrəkləşən yaşlı insanlar üçün bu ehtiyac gəncin duya bildiyindən daha ağrılıdır. "Küçə itiylə mənim aramda nə fərq var?.. O küçə iti kimi yıxılıb ölsəm, kim xəbər tutacaq, hı?.. Kim?.. Heç kim..." - deyə, Şölənin isti bədəninə uşaq kimi sığınan Qiyas müəllim qədər onun siqaret tüstüsü ilə dolu nəfəsini üzündə duyub xoşlanan Şölənin də bir insanın hənirinə, mehrinə, məhrəmliyinə ehtiyacı var.

Qəbiristanlıq əbədiyyət misalıdır. Heç yana getməyəcək, gedəcək yeri yox, əbədiyyən uyumuş ruhlar və bu sonsuzluq içrə özünə həmdəm arayan iki tənha insan... Çarəsizcə Şölünün sinəsinə qısılan Qiyas müəllim "sabah gedək zaqsa" deyir və bununla da məsələ tamamlanır. Çünki hər ikisinin şüuraltında tənhalığın diqtə etdiyi bir istək var və ikisi də biganə kimi davransa da, məqamı gələndə uzun-uzadı söhbətlər etmiş və razılığa gəlmiş kimi hazırlıqlı hiss edir özünü.

Başqasının gözündə öz varlığının əksini görmədən insanın yaşadığına, həqiqətən var olduğuna inanması çətin olur sanki - varlığının dəyəri yalnız başqasının yanında bəlli olur. İnsan tənhalığında daha çox özüdür, özünü başqasında (başqalarında) tapanda isə daim ona can atmaqla özündən vaz keçir.

Müəyyən qədər səbəblər yaratsa da, sosial status, yaxud maddi durum tənhalıq üçün həlledici rol oynamır. Bir var ətrafa nəzərən tənha hiss etmək, bir də var hər şeyə nail olub, sevgi, dostluq, ailə, maddi imkan, fiziki sağlamlıq - hər şeyə sahib olub da, daim tənhalığı içində daşımaq. Nədənsə mənə elə gəlir ki, yaradıcı insanlar tənhalığı daha çox və daha dərindən yaşayırlar. Və bəlkə də, əksəriyyəti yazmağa sövq edən elə bu tənhalıq duyğusudur. Fikir vermisinizsə, hətta "sırf özü üçün" gündəlik yazanda belə, insan bir xəyali oxucu təsəvvür edir və beləcə özünə təsəlli vermiş olur. Fil sümüyündən bir qadın heykəli yonub Qalateya adı verən və ona aşiq olan Piqmalion misalı yazarlar yaşamaq, görmək, yaxud danışmaq istədiklərini sözlərlə "yonurlar". Əgər tənhalıq bir seçimsə ruhu bütün dünyanı əvəz edəcək qədər güclü olanların seçimidir, hər halda.